**NADİR MƏMMƏDLİ**
**Filologiya elmləri doktoru, professor**
**elm.ve.tehsil@mail.ru**

# Azərbaycanlıların soykökü və xalq kimi formalaşması

**Açar sözlər**: Atropatina, Arran, Albaniya, səlcuq, sefevi, Midiya, Xəzər, uti, qarqar, massaget.
**Ключевые слова:** Атропатена, Арран, Албания, селджуг, сефеви, Мидия, Каспи, ути, гаргар, сак, массагет.
**Key words**: Atropatena, Arran, Albania, saljug, sefevi, Midiya, Kaspi, Whtie, gargar, sak, massaget.

Azərbaycan türk tayfaları Urmiya gölünün sahillərindən Dərbəndədək tarixi ərazidə yşamış, əsrlər boyu davam edən ictimai-tarixi, coğrafi, etnik hadisələrlə əlaqədar qaynayıb-qarışmışlar. Xüsusilə Əhəmənilər dövründən Azərbaycanda İran təsiri güclənmiş, eyni zamanda həmin ərəfədə buraya türk etnoslarının Şimali Qafqaz və Orta Asiyadan axını artmışdır. Ləhcə fərqlərinə baxmayaraq, erkən orta əsrlərdə yerli və gəlmə türk etnoslarının vahid xalq kimi formalaşması prosesi başlamışdır.

Ə.Dəmirçizadə Azərbaycan türklərinin formalaşmasında hansı qəbilə və tayfaların olmasına aydınlıq gətirir: *paratak, struxat, arizant, budi, mağ, qas, qassit, xəzər, sak, skif, hun, suvar, qıpçaq*. Onun fikrincə, elm aləmində dəqiqləşdirildiyi kimi bu qəbilə və tayfalar türkdilli olmuşlar. Ə.Dəmirçizadə bu qəbilə və tayfaların qaynayıb-qarışması, vahid xalq halında formalaşmasında müxtəlif tarixi hadisə və şəraiti üç mərhələ ilə üzvi şəkildə bağlayır:

1. Kiçik Midiya əsasında Atropaten – Azərbaycan dövlətinin yaranması və buradakı qəbilələrin qaynayıb-qarışmasının güclənməsi; eləcə də müstəqil Alban dövlətinin yaranması, bu ərazidəki qəbilələrin qaynayıb-qarışmasının güclənməsi və çox müxtəlif dilli tayfalar mərhələsi;

2. Atropatena və Alban ərazisinin, yəni Azərbaycanın cənub və şimal hissələrinin bir dövlət daxilində olması, iqtisadi, siyasi, ictimai-mədəni cəhətdən bu ərazidəki qəbilələrin, tayfaların arasında əlaqələrin artması və yaxın qohumdillilik mərhələsi;

3. Xaricilərə qarşı mübarizədə müttəfiqliyin güclənməsi, türkdilli qəbilə və tayfaların qaynayıb-qarışmada üstünləşməsi və vahid Azərbaycan xalqının, ümumxalq Azərbaycan dilinin formalaşması mərhələsi.

Bu mərhələlərin hamısında başqa dillərdə danışan qəbilə və tayfalar türk dilli qəbilə və tayfalarla qaynayıb-qarışmışlar, beləliklə də, türk dillərinə mənsub bir sıra dil vahidləri, xüsusən sözlər həmin dillərin lüğət tərkibində getdikcə çoxalmışdır. Xüsusilə sonuncu - üçüncü mərhələdə Qafqaza və İrana oğuz, qıpçaq tayfalarının kütləvi surətdə gəlmələri və bu ərazidə əsrlər boyu yaşayan türkdilli tayfalarla qaynayıb-qarışmaları türk dillərinə mənsub vahid ümumxalq dili halında Azərbaycan dilinin hələ V-VI əsrlərdən formalaşması prosesini, demək olar ki, daha da sürətləndirmiş və tamamlamışdır (1, 49).

Antik qaynaqlarda Azərbaycanın cənub hissəsi Atropatena, şimal hissəsi Albaniya, ərəb qaynaqlarında Atropatenadan Dərbəndədək ərazi **Azrəbican** adlandırılmışdır. Y.Yusifov bu ərazidə e.ə. III-I minilliklərdə türk etnoslarının yaşadığını bildirir. Bunu o dövrün türk etnoslarının dilinə məxsus toponim, etnonim, şəxs adları ilə əsaslandırır (bax: 2, 78, 209-213). Bu o deməkdir ki, qədim Azərbaycan, Ön Qafqaz oğuz Albaniyası ərazisində prototürk etnoslar yaşamış və ümumtürk leksikası əsasında bu onomastik vahidlər meydana gəlmişdir. Müəllif həmçinin bu ərazidə ***Aratta*** adlı bir dövlətin olması barədə məlumat verir. *Kuti, lullubi, su, turukki* və s. tayfaların bu dövlətin ərazisində yaşadığını konkret faktlarla əsaslandırır. Onun fikrincə*, turukki* «türk» etnoniminin qədim formasıdır. Turukkilər *lullub*i tayfa ittifaqına daxil olmuşlar. *Aratta*, türk dillərindəki «dağ silsiləsi, dağ» mənası verən *Alataa//Alatan* sözü sonralar fonetik dəyişikliyə uğrayaraq *Alateye* şəklinə düşmüşdür. Müəllif, hətta mannalıları *lullubi-turukki* türk etnoslarının xələfləri hesab edir. Qeyd edir ki, qədimdə *turukki* türk əhalisinin öz adı olmuşdur, *lullubi, kuti, mannalı* və s. onlara verilmiş kənar adlardır; lakin bu adlar eyni dilli tayfaların arasında da yarana bilərdi (2, 78). Y.Yusifov etnoqrafik yozumla güman edir ki, qədim Azərbaycan sakinlərinin dilində *lulu* (yaxud *lo-lo*) sözü müəyyən məqsədlə tez-tez işlənirmiş və buna görə də müvafiq ifadə kənar əhali tərəfindən Azərbaycan sakinlərinə ümumi ad kimi verilmişdir(2, 78-79). Tədqiqatçının fikrincə, qədim *utilər* də *turukki* etnosuna aid olmuşlar. *Su* tayfaları Zaqroş dağları və Urmiya gölünün cənubunda e.ə. III-II minillikdə yaşamış, bu etnonimin ilkin forması suv/sub olmuş, güman edilir ki, bu, *sabir/ suvar* tayfalarının eynidir. K*utilər* Urmiya gölünün cənub və qərb regionlarında məskunlşmış, *turukku, su* tayfaları ilə ittifaqda olmuşlar (2,79-82).

Qədim Şərqdə türklərin müxtəlif adları elmə məlumdur: *kimmer, skit, massaget, sak* və s. Bizans qaynaqlarında bunlar hun-türk tayfalarının qədim adları kimi göstərilir. Bu tayfaların geniş ərazidə yaşayan farsdilli etnoslarla yaxın təmasda olması və birgə yerdəyişməyə məruz qalmaları istisna olunmur. Təbii ki, yerdəyişmə zamanı hər bir tayfa etnik və dil cəhətdən qohum etnoslarla qaynayıb-qarışıb. Tarixdə bir neçə türk axını məlumdur: 1) e.ə. VIII-VII əsrlərdə *skit* və *sak* tayfalarının Ön Asiyaya gəlişi; 2) e.ə. II-V əsrlərdə *hunların*; 3) XI-XII əsrlərdə Oğuz-Səlcuqların axını. Hər üç köç və axında türk etnosları Azərbaycanda da məskən salmış və yerli türk əhalisi ilə qaynayıb qarışmışlar. Şimaldan gələn *sak* adlı *skit* tayfaları da Azərbaycanda məskunlaşmışlar. Azərbaycan türklərinin etnoslarının bu sələflərinin adı antik qaynaqlarda çəkilsə də, *türk* etnonimi işlədilmir (ətraflı bax: 2, 209-213).

Parf imperiyası zamanı azərbaycanlılar bir xalq kimi birləşməyə başlayır və türkdilli tayfalar vahid bir etnos kimi Azərbaycan ərazisində formalaşırlar. Hətta III əsrdə Sasanilər sülaləsinin hakimiyyətə gəlməsi, farsdilli hakimiyyətin siyasi üstünlüyü də Azərbaycanda türk etnik birliyinin formalaşmasına, sonralar möhkəmlənməsinə mane ola bilmədi. Bizans imperiyasının xristian dini Albaniyaya yol açır. Sasani şahları hər vəchlə bu dinin Azərbaycanda yayılmasına mane olmağa çalışır, Azərbaycanda məskən salan *hunlar, xəzərlər* dildaşlarını xristianlaşmadan qorusalar da, Albaniya hakim dairələri əhaliyə xristianlığı zorla qəbul etdirmişlər. Bəzi hun tayfaları da xristianlığı qəbul etmişlər.

Albaniya coğrafi anlayışı Kürün sağ və sol hissəsi ərazisidir. Strabon Albaniyanın ərazi sərhədləri ilə bağlı qeyd edir ki, cənubdan Kür çayı boyunca Kolxidaya, daha dəqiq desək, İberiya və Xəzər dənizi, şimalda Qafqaz dağlarına qədər sahəni tutur (3, 17, 19). Strabonun yazdığına görə, Albaniya ərazisində müxtəlif dillərdə danışan 26 tayfa olmuşdur. Dyakonov Strabona əsaslanaraq qeyd edir: "Onlara indi bir hökmdar hakimdir. Əvvəllər öz dili olan hər bir dövlətin öz hökmdarı var idi. Onların arasında kifayət qədər ünsiyyətin olmaması üzündən 26 dili (yaxud ləhcələri) vardır" (4, 70). M.İ.Dyakonova görə, Midiya ərazisində irandilli midiyalılarla yanaşı, qeyri-irandilli tayfalar da yaşamışlar. Qədim Azərbaycan ərazisində müxtəlif etnosların ünsiyyət vasitəsi də fərqli dillər olmuşdur (ətraflı bax: 4, 70). T.Hacıyevin araşdırmalarının nəticəsi belədir ki, dillərin dəyişməsi, yerli-köklü əhalinin sıxışdırılıb çıxarılması hələ izsiz-əlamətsiz itib getməsi deyildir. Tarix həmin torpağın tarixini yaşadanların, müasir dövrə gətirib çıxardanlarındır. Qədim midiyalıların və albanların hansı dildə danışmalarından asılı olmayaraq, indiki azər-

baycanlılar Midiya və Albaniya tarixinin birbaşa varisləridirlər (5, 12-13). M.İ.Dyakonov da belə qənaətə gəlir ki, tarix yalnız torpağın, coğrafi koordinatların hesaba alınması deyil, həmin koordinatlarda baş vermiş ictimai təkamülün, etnik inkişafın, maddi və mənəvi mədəniyyətin tarixidir. Ulu babaları (*azərbaycanlılar nəzərdə tutulur – red. N.M.*) müxtəlif dillərdə danışmışlarsa da, onların yaratdığı mədəni, tarixi irsə yiyələnən, tarixin keşməkeşlərindən keçirib yaşadan müasir xalqlar bu torpağın həm də qədim sakinlərinin törəmələri, həqiqi varisləri sayılırlar (4, 70). Tofiq Hacıyev "Azərbaycan tarixi" kitablarına (6) əsaslanaraq qədim dilimizin azəri və Arran olması fikrini irəli sürür. Erkən orta əsr qaynaqları Azərbaycanda mövcud olan dillər barədə heç bir məlumat vermir, lakin əhalisinin hunlardan ibarət olması barədə təsəvvür yaradır. Qaynaqlarda *sovde, girdman, qarqar* türk mənşəli etnoslar Arrana aid edilir. Alban tayfa ittifaqından danışarkən T.Hacıyev bildirir ki, hər tayfanın öz dili olmuşdur, ancaq müxtəlif vaxtlarda bu tayfalardan biri siyasi cəhətdən güclənmiş və dili aparıcı mövqeyə qalxmışdır. Ola bilsin ki, bu tayfanın dili məhz ölkənin – siyasi-inzibati toponimin özü ilə adlandırılmışdır. Onun fikrincə, Arran dili anlayışı da belə başa düşülməlidir. Yəni alban və Arran konkret etnosla bağlı deyil, coğrafi-inzibati ərazi adlarıdır (ətraflı bax: 5, 12). Albaniyada siyasi hakimiyyət türk tayfalarının əlində olmasa idi siyasi-inzibati titullar, adlar, türk mənşəli sözlərlə adlandırılmazdı. T.Hacıyev bu siyasi mövqeyi türklərin ölkədə kəmiyyətcə üstünlük təşkil etməsi ilə əlaqələndirir (5, 32-34).

Yanlış olaraq bəzən *uti* və *albanların* mənşəyini Azərbaycan türklərinin soykökünə aid etmir, onları *udin* və *udilərlə* eyniləşdirirlər. T.Hacıyevin yanaşmasına görə, türk mənşəli Azərbaycan dilinin formalaşdığı ilk dövrlərdə Albaniyada vahid ünsiyyət vasitəsi kimi xidmət göstərən alban dili olmamışdır. Bu dil xəyali xarkter daşıyır. Sual edir: "Bu necə dildir ki, əlimizdə türk mənşəli Azərbaycan dilində yazılı nümunələr olan XIII əsrdən onun heç bir elementinə təsadüf olunmur?" Fikrini belə əsaslandırır ki, X – XII əsrlərdə türk tayfaları tərəfindən assimilyasiya olunan bu dilin qalib dildə mütləq müəyyən izləri qlmalı idi. Halbuki, Azərbaycan dilində türk tayfa dillərinə, həmçinin alınma ünsür kimi ərəb və fars dillərinə aid olandan əlavə heç bir dil xüsusiyyətinə, substrat nişanəsinə rast gəlinmir. Yəni, alban dili hegemon vəziyyətdən düşərkən ya mövqeyini daraldıb, məhdud şəkildə fəaliyyət göstərməli, yaxud müəyyən substrat faktlarla özünü gələcək nəsillərə təqdim etməli idi (5, 11). Bu fikrin həqiqiliyini faktlar da sübut edir. Məsələn, 1222-ci ildə Cəbə və Sabutayın başçılığı ilə monqol qoşunları

Azərbaycana girib, ölkənin ictimai-iqtisadi, siyasi və mədəni həyatına böyük zərbə vurur. İqtisadi və siyasi qüdrətini itirmiş Atabəylər dövləti ölkədə vəziyyəti nizama sala bilmir, Şamaxı, Qəbələ, Gəncə şəhərləri talan olunur. Monqolların 1231-ci ildə ikinci və 1250-ci illərdə üçüncü yürüşləri, Hülakülər dövlətinin yaranması Azərbaycanın işğal tarixlərindəndir. Təxminən 800 il üstündən ötən bu hakimiyyətdən dilimizdə çoxlu sayda monqol sözü miras qalıb: *ər, bal, ayaq, şor, mal, çiçək, quda, qabırğa, balta, saqqal, qayçı, ələk, çöl, torpaq, toz, buz, bulaq, xurma, al, göy, kömək, çağ* və s.

Q.Kazımov da albanların ölkə ərazisində geniş yayılmış tayfa olduğunu bildirir, belə əhalinin izsiz yox olmasına şübhə edir. Onun fikrincə, dilimizdə xüsusi qafqazdilli alban tayfa izlərinin (substrat) olmaması göstərir ki, albanlar türk olmaqla başqa türk tayfaları ilə qarışmış, başqaları kimi, onlar da etnik adını tədricən unudaraq Azərbaycan xalqının etnik tərkibində mühüm yer tutmuşlar. Bu tayfanın heç bir iz qoymadan məhv olduğunu iddia edənlərə də cavabı belədir ki, onlar daha çox qədim Arsax ərazilərini nəzərdə tuturlar; guya Dağlıq Qarabağ ərazisində xristian albanlar erməniləşmiş və məhv olmuşlar. Bu fikrin tərəfdarlarından olan F.Məmmədovanın fikirlərində ziddiyəti aşkarlayan tədqiqatçı bildirir ki, F.Məmmədovanın fikrincə, Arsaxda - Dağlıq Qarabağda alban əhalisi uzun müddət - 1836-cı ilədək adda-budda yaşamaqda davam edir, özünün milli mövqeyini, ərazi, dini və siyasi birliyini, eləcə də alban etnik özünüdərki saxlayır. Q.Kazımov bu fikrin yanlışlığını sübut edərək yazır: “Bizə görə, burada söylənilən fikir, xüsusilə 1836-cı ilə qədər Qarabağda albanların adda-budda yaşaması və sonra birdən-birə yox olması əsassız fikirdir. Bunlar kim idi, hansı dildə danışırdılar? Nə üçün yazıları qalmayıb? Əgər həmin dövrdə deyildiyi şəkildə tayfa elementləri olmuşsa, şəksiz, onlar hələ də öz etnik adını unutmamış türk-albanlar olmuşlar. Digər tərəfdən, müəllif albanların bir etnos kimi Kürün sağ və sol sahil vilayətlərindəki geniş ərazilərdə yaşadıqlarını müəyyənləşdirdiyi halda, onların məhvini kiçik bir ərazidə - Dağlıq Qarabağda axtarır” (7, 355).”

Başqa bir fakt: Azərbaycanın şimalında *xınalıq, qrız, hapıt, buduq, avar, ləzgi* etnosları yaşayırlar. Bu tayfalar müxtəlif dövrlərdə bu ərazilərdə məskunlaşmışlar. Əsrlər keçsə də onlar öz dillərini, etnik mənsubiyyətlərini saxlamışlar. *Kürd* etnosları, *tatlar* erkən orta əsrlərdən öz ana dillərini qorusalar da, ünsiyyət vasitəsi kimi Azərbaycan dilindən istifadə edirlər. Deməli, dil tamamilə assimilyasiya oluna bilməz. Hər halda ərəblərin gəlişinədək mövcud olan bir dövlətin dili belə asanlıqla

silinməz. Akademik Z.Bünyadov məşhur şərqşünas alim P.K.Jüzeyə əsaslanaraq yazır ki, vaxtilə Göyçə gölündən Dərbəndədək böyük bir ərazidə yaşayıb, öz kilsəsi, padşahları, knyazları, özünəməxsus mədəniyyəti olan albanlar kimi böyük bir xalqdan indi Azərbaycanın şimal-qərbində yşayan və biləvasitə albanların nəsli olan bir neçə min udin istisna olunmaqla, demək olar ki, heç bir iz qalmamışdır. Q.Kazımov bu fikrin tamamilə əleyhinədir. Əsası olmayan bu ideyanı ilk dəfə İ.P.Petruşevskinin söylədiyini qeyd edən Q.Kazımov Z.Bünyadovdan savayı, S.T.Yeremyan, Z.İ.Yampolski, Q.A.Klimov, A.Q.Şanidze, İ.Əliyev, V.L.Qukasyan, F.Məmmədovanın da qəbul və təkrar etdiyinibildirir (7, 352-353). Yazır: "Dağıstandilli udinlər alban tayfa ittifaqının bir üzvü olmuşdur. Strabon Atropatenada Xəzərin cənub-qərbində alban və uti tayfalarının yanaşı yaşadığını göstərir. Bu ərazidə udinlər ola bilməzdi. Deməli, bir tərəfdən utilərlə udinlər, o biri tərəfdən də udinlərlə albanlar eyniləşdirilmişdir. E.ə. IV əsrdən eramızın VII əsrinədək dövləti olan, ən geci V əsrdən yazısı olan albanlarla kiçik bir tayfa olan udinlərin eyniləşdirilməsi heç bir məntiqə sığmır. Bu cür köklü bir səhvin nəticəsidir ki, S.T.Yeremyan, və A.Şanidze alban dilini udin dili hesab etmiş, albanları udinlərin əcdadı saymışlar" (7, 353). F.Məmmədova Albaniya üçün ünsiyyət dilini alban dili hesab etsə də, onu Nax-Dağıstan qrupuna (dillərinə) aid edir. Q.Kazımov bu fikri təkzib edir, tarixçilərin mülahizələrinə əsaslanaraq bildirir ki, Nax-Dağıstan dillərindən heç biri Azərbaycan ərazisində heç vaxt ümumünsiyyət vasitəsi olmamışdır (7, 354).

İstilaçı ərəblər və yerli Arran knyazları tədricən yaxınlaşmışlar və nəhayət, bu knyazlar o qədər ərəbləşmişlər ki, xalis ərəb, müsəlman adları daşımağa başlmış, ərəb dili və mədəniyyətini qəbul etmişlər, belə ki, bu və ya digər feodalın hansı millətə və ya dinə mənsub olduğunu müəyyən etmək çətin olmuşdur (8, 170-171). N.Əliyeva VII-XIII əsrlərdə Azərbaycanda islam mədəniyyətindən danışarkən qeyd edir ki, xilafətin şimal sərhədlərinin möhkəmləndirilməsi üçün böyük sayda ərəb əhalisinin köçürülməsi və burada məskunlaşması ilə müşayiət olunurdu. Digər fatehlər kimi ərəb xəlifələri də zəbt olunmuş yerlərdə möhkəmlənmək üçün bu siyasətdən istifadə edirdilər. Hazırda 96 faizi müsəlman olan Azərbaycanda əhalisinin islam yönündə maariflənməsində bu ölkəyə köçürülmüş ərəb qəbilələrinin rolu böyük olmuşdur. Ərəb - xəzər müharibələrində Azərbaycan ərazisində hərbi-nəzarət məntəqələrinin yaradılması və ərəb qəbilələrinin bu məntəqələrdə və yaxın ərazilərdə yerləşdirilməsi, burada məscidlərin tikilməsi, ərəblərlə yerli əhalinin qarışması islamın yayılmasında öz rolunu oynamışdır. Hətta qala

bürclərində tikilmiş məscidlər də əhalinin islam yönündə maarifləndirilməsini nəzərdə tuturdu (9, 304). Lakin ərəblərlə Azərbaycan və Arran əhalisi arasında başlanan yaxınlaşma prosesi əvvəlcə səlcuqların, sonra isə monqolların hücumu ilə çox tez dayandırılmışdır.

Azərbaycandakı ərəblər ərəb mədəniyyəti mərkəzləri ilə əlaqəni itirdikdən sonra yerli türk əhalisinin dilində danışmağa başlamış və yerli əhalinin həyat tərzini, yemək, geyim və s. mədəniyyətini qəbul etmişlər. Tarixən Azərbaycana ərəblərdən savayı, farsların, monqolların kütləvi axınları məlumdur. Lakin bu axınlar kəmiyyətcə çoxluq təşkil edən Azərbaycan türklərinin xalq birliyini, fiziki varlığını poza bilməmiş, gəlmə tayfalar burada assimilyasiya olunmuşlar. Azərbaycan dili və xalqının formalaşmasında, həm etnik, həm də funksional vəhdətində, ümumiliyində din birliyinin – İslam amilinin rolu danılmaz, xidməti əvəzsizdir. Ərəb - islam işğalları yerli tayfa və xalqlarin yenidən birləşməsini, əlbir olmasını tələb etmiş, bu mənafe uyğunluğundan gələn əlbirlik etnik yaxınlaşma və qovuşmalara qədər çatmışdır. Yad hakimiyyətə qarşı mübarizə prosesində xalq birliyinin və deməli, dil birliyinin təşəkkülü başa çatmışdır. Daha sonrakı illərdə ərəb və fars işğalçı siyasəti unudulmuş, dilləri «mədəniyyət göstəricisi» olmuşdur. Ərəblər yerli əhali ilə o dərəcədə qarışmışlar ki, Azərbaycanda ərəb dilində danışan heç bir yaşayış məntəqəsi qalmamışdır.* T.Hacıyevin fikrincə, Azərbaycan dilinin və xalqının təşəkkülü III-VII əsrlərdən başlayaraq VIII əsrdə, demək olar ki, başa çatmışdır. Məhz bu əsrlərdə həm tarixi – siyasi şərait, həm etnik inteqrasiya xalq birliyini yaradır və ona xidmət edən xalq dili müəyyənləşir (5, 32-34). Azərbaycan ərəb xilafəti tərkibində ərazi bütövlüyünü, mədəniyyətini, adət-ənənələrini, qonşu xalqlarla iqtisadi, siyasi münasibətlərini saxlaya bilir. Əgər belə olmasaydı, həmin istila dövründə xalqın taleyi tamam ayrı istiqamətdə gedərdi. T.Hacıyev doğru olaraq əsaslandırır ki, əgər bu ərazidə yalnız kiçik tayfalar mövcud olsa idi, həm ağır təsir şəraitində, həmin zaman müddətində onlar asanlıqla assimilyasiya edilərdilər. Azərbaycanda ərəb dilinin olduğu şəraitdə danışıq-ünsiyyət sferasında ərəbləşmə gedə

---

* Lakin vaxtilə ərəblərin məskunlaşdığı yaşayış məntəqələrinin adında **ərəb** sözü qalmaqdadır: Qubada – Ərəbli, Ərəbkeymurax, Ərəbdəhnə, Ərəbhacı; Şamaxıda – Ərəblər, Ərəbşalbaş, Ərəbuşağı, Ərəbqədim, Ərəbşanılı, Ərəbşahverdi; Kürdəmirdə - Ərəbqiyaslı, Ərəbçəltikçi, Ərəbsarvan; Göyçayda – Ərəbcərbirli, Ərəbxana, Ərəbmehdibəy,Ərəbşahverdi; Salyanda – Ərəbbəbirxan, Ərəbqardaşxan; Lənkəranda – Ərəb; Ağdaşd – Ərəb, Ərəbkukel, Ərəbbəsrə, Ərəbocaq, Ərəbşəkil, Ərəbşeyx; Laçında – Ərəb, Ərəli; Gədəbəydə - Ərəbli və s.

bilərdi. Bütün bu fakt və göstəricilər alban dilinin qədim Azərbaycan türklərinin dili olmasını təsdiqləyir. Məhz türk etnoslarının siyasi və fiziki üstünlüyü sayəsində Arran və başqa dillərin adları sıradan çıxmış, **türk dili** anlayışı yayılmışdır. Erkən orta əsrlərdə – VII-VIII əsrlərdə türk etnoslarının birləşməsi nəticəsində ümumxalq Azərbaycan dili yaranmış və Azərbaycan türkləri vahid xalq kimi formalaşmışlar (5, 32-34).

Azərbaycana türklərin nə vaxt məskunlaşması, Azərbaycan etnogenezi məsələlərinin aydınlaşdırılması çox mürəkkəb məsələdir. Azərbaycan xalqının mənşəyi uzun müddət, bilərəkdən yanlış izah edilmişdir; güya azərbaycanlılar farslardan dönmədir, XI-XII əsrə qədər Azərbaycanda türk etnosları yaşamamışlar. Lakin, bütün tarixi mənbələr təsdiq edir ki, bu ərazilərdə türk tayfaları qədim dövrlərdən məskunlaşmış, Səlcuq və Səfəvilər dövründə onların hərbi-siyasi mövqeyi güclənmişdir. Azərbaycanlıların midiyalılardan, albanlardan törəməsi müddəasının cavabı budur ki, *alban, midiyalı, kaspi, uti, qarqar, sakasen, matian, sak, massaget* və başqa tayfalar müasir azərbaycanlıların uzaq əcdadları olmuşlar. Azərbaycan türklərinin mənşəyi dil mənsubiyyətinə uyğun Azərbaycanda yaşamış qədim türk etnoslarının tarixi ilə bağlıdır. Qərbdə Egey dənizi, Anadoludan başlamış şərqdə Çinə, şimalda Rusiyanın tayqa meşələrindən, Qafqazdan tutmuş İran yaylasının cənubuna kimi çox geniş ərazidə türk xalqları məskunlaşmışlar. Hər bir türk xalqı bu ərazilərdə müxtəlif ad altında formalaşmışdır; türklərin qədim kökləri əsasında özünəməxsus adla xalq kimi formalaşması erkən orta əsrlərdən başlamışdır. Azərbaycan xalqının formalaşmasında da Azərbaycanda yaşamış, müxtəlif dövrlərdə qaynayıb-qarışmış türk etnosları əsas olmuşdur. V əsrdə Azərbaycan ərazisinə – Muğana köç etmiş *ağ hunlar* Balasaqun şəhərini salmışlar. 576-cı ildə xeyli sayda *sabir hun* tayfaları Gəncə ətrafına köçürülmüşdü. Azərbaycanda və qonşu ərazilərdə türk tayfalarının intensiv şəkildə məskunlaşması *xəzər* basqınları ilə də bağlıdır. A.Sumbatzadə Moisey Xorenatsiyə əsaslanaraq yazır ki, 193 və 213-cü illər arasında *xəzər* və *bas* tayfalarının birləşmiş kütləsi *Cor* qapılarından daxil olaraq Kür çayını keçmiş və bütün ölkəyə yayılmışlar (10, 77). Türk tayfalarından biri olan *xəzərlər* Xəzər xaqanlığında mühüm yer tutublar. Müaviyə ilə bağlı bir rəvayətdə deyilir: «Bir gün Müaviyə Azərbaycana qoşun göndərmədən qabaq müşaviri Ubeyd ibn Sariyədən soruşur: Azərbaycan nə yerdir? Ubeyd cavab verir ki, bura qədimdən türklərin ölkəsidir». Xəzərlər Qafqazda yerləşəndən sonra Göy Türk imperatorluğuna tabe olmuş, VII əsrdə bu imperatorluq çökdükdən sonra müstəqilləşərək özləri imperatorluq qurmuşlar. Rəsmi dilləri də *xəzər*

*türkcəsi* olmuşdur. Sasanilərdən Qubadın səltənətinin sonuna qədər Arran, Gürcüstan, Vasporaqan və Sisecan xəzərlər və türk ellərinin əlində qalmışdır. Ona görə də bütün Azərbaycana "Xəzər ölkəsi" də deyirdilər (11. 163). Xəzərlərin hərbi-siyasi təsiri uzun sürüb. Hətta ərəblər Dərbəndədək əraziyə sahib olduqda xəzər və başqa türk tayfalarını buradan uzaqlaşdırmağa cəhd etmişlər. Ərəblərin birinci uğursuz döyüşü 653-654-cü illərdə baş vermişdir, bu da xilafətin içərisindəki qalmaqallarla izah olunur. Bundan istifadə edən xəzərlər Zaqafqaziyada möhkəmlənmiş, Albaniyanı tabeliyinə keçirmiş və ağır vergilər təyin etmişlər.

Ziya Bünyadov da bir çox rus və ərəb mənbələrinə istinadən məlumat verir ki, türkləşmənin XI-XII əsrlərdə baş verdiyini qəbul etmək səhv olar; türklərin Azərbaycan ərazisinə kənardan gəlməsi də qəbuledilməzdir. Çünki XI əsrə qədər bu coğrafi ərazidə çox böyük türk tayfaları yaşayırdı. Türkləşmə prosesi yalnız türk aborogenlərinin cənubdan gələn oğuzlar və şimaldan gələn qıpçaqlarla qarışması nəticəsində, bunların assimilyasiyasından sonra başlandı və getdikcə sürətlənib Alban və Arran ərazisində müasir azərbaycanlıları əmələ gətirən türkdilli Azərbaycan xalqının təşəkkül forması ilə nəticələndi (8, 172-173).

Eramızın ilk əsrlərindən başlayaraq Azərbaycanda məskunlaşan türklərin (qıpçaqların) etnocoğrafi mövqeyini IX-XI əsrlərdə tədricən intensivləşən oğuz-səlcuq yürüşləri möhkəmləndirir. Mərkəzi Asiyadan başlayıb Xəzərin cənubundan keçməklə Anadoluya doğru istiqamətlənən (və orta əsrlərin sonlarına qədər mərhələlərlə davam edən) bu yürüşlər, hun-qıpçaq axınlarından fərqli olaraq, daha çox hərbi-siyasi xarakter daşıyır. E.Bertelsin fikrincə, səlcuqlar islamın ideallarını həyatda canlandırmağa, ədaləti və ədalət məhkəməsini təcrübədən keçirməyə çalışırdılar (13, 13).

Əsas fərq bu idi ki, oğuz-səlcuqlar artıq islam dinini qəbul etmiş, yaxşı təşkilatlanmışdılar. Onların saraylarında türk dili ilə yanaşı fars, ərəb dilləri də böyük nüfuza malik idi. Çünki oğuz-səlcuq əsilzadələri özlərini yalnız türk yox, həm ərəb, həm fars kimi hiss edir, yəni bütövlükdə müsəlman dünyasının övlad-varisləri sayırdılar. Kenan Çetin yazır: "Səlcuq hökmdarları bir Türk-islam hökmdarı olduğu üçün hər bir İslam hökmdarı kimi, Abbasi xilafətinin dini liderliyini tanıyır və ona mənəvi yöndən bağlı olurdu. Abbasi xəlifələri də Böyük Səlcuqlu hömdarlarını din və dünya üşlərində özlərini hər zaman qüdrətli yardımçıları olaraq təqdir edirdilər" (13, 17).

Azərbaycanda Atabəylər dövlətini yaradan oğuz-səlcuqlar tədricən Anadoluya - Bizansa öz passionar güclərini göstərməyə başlayır,

XI-XIII əsrlərdə böyük bir ərazini zəbt edərək dövlətlərini qururlar. Anadolunun fəthi XIII əsrdən sonra osmanlılar dövründə də davam edir. Səlcuq türkləri islamın sünni – hənəfi və maliki məzhəblərinə mənsub olsalar da, heç zaman dini təəssübkeş olmamış, hər cür dini inanca və düşüncəyə geniş yer vermişlər. Səlcuq imperiyasının idarəsi altında qeyri-müsəlman əhali belə rahat yaşamış, hətta Anadolu xristianları Bizans yerinə Səlcuq üsul-idarəsinə üstünlük vermişlər (ətraflı bax: 14, 211). Şimalda qıpçaq türklərinin o qədər də davamlı olmayan hücumlarından savayı, oğuz-səlcuq türklərinin Azərbaycanın həm cənubunda, həm də şimalında yayılması əhəmiyyətli bir maneə ilə qarşılaşmır. Bunanla belə, nəzərə almaq lazımdır ki, oğuz-səlcuq yürüşlərinin əsas istiqaməti Qərbə - Anadolunun içərilərinə doğru olduğundan nə Cənub-Qərb, nə də Şimal-Qərb istiqamətləri strateji əhəmiyyət kəsb edirdi (15).

Səlcuq türklərinin gəlməsi ilə sürətlənən türkləşmə Elxanilər dövründə təkmilləşir. İslam tarixçisi İbn əl Əsirin yazdığına görə, monqol ordularının əksəriyyətini türklər təşkil edirdi. Rəşidəddin "Cameət-təvarex" əsərində monqol hakimi Hülakü ilə İrana iki milyon türkün köçdüyünü bildirir. Tat tayfalarının da diskriminasiyası, Azərbaycana köçürülməsi Elxanilər dövrünə təsadüf edir.

Oğuz-səlcuq yürüşləri XIII əsrdən başlayaraq Anadoluda - Kiçik Asiya yarımadasında, sonralar isə Balkanlarda digər bir oğuz-türk xalqının osmanlıların (Türkiyə türklərinin) əsasını qoyur.

Azərbaycanda məskunlaşan və Azərbaycan xalqının formalaşmasını təmin edən oğuz-səlcuqların arxasınca regiona digər türk etnoslarının da axınları XVI əsrə qədər davam edir. Monqol-tatarların, Əmir Teymurun, Qaraqoyunluların və Ağqoyunluların yürüşləri Azərbaycan xalqının etnik tərkibini gücləndirir. Və eramızın ilk əsrlərindən başlayan proses orta əsrlərin sonu, yeni dövrün əvvəllərinə qədər kəsilmədən davam edir.

Biri digərinə çox yaxın olan türkmənlər, Azərbaycan və Türkiyə türklərinin etnik-coğrafi əsasları müxtəlif dövrlərdə qoyulsa da, onların müstəqil bir xalq kimi formalaşması, demək olar ki, eyni dövrə – XVI-XVII əsrlərə təsadüf edir. Müasir türkmən, Azərbaycan və türk xalqlarının orta əsrlərin sonlarına doğru müstəqil xalqlar kimi meydana çıxmalarının etnik-coğrafi, siyasi, dini və s. səbəbləri vardır ki, bunlar bir kompleks halında oğuz türklərinin həmin xalqlara bölünməsini şərtləndirir.

Beləliklə, Azərbaycan xalqının eramızın ilk əsrlərindən başlayan təşəkkül-formalaşma tarixi orta əsrlərin sonu, yeni dövrün əvvəllərində – XVI-XVII əsrlərdə başa çatır.

Azərbaycan xalqının Cənubi Qafqazda əsas etnik qüvvəyə çevrilməsi, səlcuq axınları nəticəsində:

1) türk tayfalarının yeni dəstələri Şimali Azərbaycanda məskən salır;

2) Azərbaycan türk xalqının təşəkkülü prosesi qəti olaraq başa çatır;

3) oğuz – türk tayfaları Cənubi Qafqazda və Ön Asiyada başlıca etnik və siyasi qüvvəyə çevrilir;

4) bu türk – oğuz qüvvələri Yaxın və Orta Şərqin bütün sonrakı tarixində mühüm rol oynayır (16).

## Ədəbiyyat

1.Ə.Dəmirçizadə. Azərbaycan ədəbi dilinin tarixi. Bakı, "Maarif", 1979

2. Azərbaycan tarixi. Bakı, Azərbaycan Dövlət Nəşriyyatı, 1994.

3. К.Алиев.Античные источники по истории Азервайджана. Ваку, 1986.

4. М.И.Дяконов. История Мидия. М., 1967.

5. T.Hacıyev, K.Vəliyev. Azərbaycan dili tarixi. Bakı, "Maarif", 1983.

6. Azərbaycan tarixi. Azərtədrisnəşr,Bakı,1960; Azərbaycan tarixi. Azərb. EA nəşri, Bakı, 1961.

7. Q.Kazımov. Azərbaycan dilinin tarixi. "Teas nəşriyyat evi", İstanbul, 2017.

8. Z.Bünyadov. Azərbaycan VII – IX əsrlərdə. Bakı, Azərnəşr, 1989.

9. N.Əliyeva. Azərbaycanda islam mədəniyyəti (VII – XIII əsrin əvvəlləri). Bakı, "Elm və təhsil", 2017.

10. А.С.Сумбатзаде. Азербайджанцы – етногенез и формировании народа. Баку, «Елм», 1990.

11. C.Heyət. Dilimiz, ədəbiyyatımız və kimliyimiz uğrunda. Bakı, "Elm və təhsil", 2011.

12. Е.Э.Бертельс. Великий Азербайджанский поет Низами. Баку, Изд. АзФан, 1940.

13. Kenan Çətin. Selcuklu medeniyyeti tarihi. İstanbul, Yitik Hazine Yayınları, 2011.

14.O.Turan. Selcuklular tarihi ve türk-islam medeniyyeti. İstanbul, "Ötüken", 2009.

15. N.Cəfərov: http://www.aznews.az/news/siyaset/10273.

16. Səlcuq türklərinin Azərbaycana yürüşləri tarixdə türkdilli tayfaların Azərbycana III axını adlanır.
https://www.facebook.com/362358207167015/posts/s%C9%99lcuqlar-v%C9%99-az%C9%99 rbaycana z%C 9%99rbaycan- b%C3%B6y%-

C3%BCk-s%C9%99lcuq-imperatorlu%C4%9Funun-t%C9%99rkibind%-C9%99-s%C9%99lcu/386957311373771

**Надир Мамедли**

**Этногенез азербайджанцев и их формирование как народ**

**Резюме**

Азербайджанский народ как и все народы мира сформировался на определенной исторической территории и по разным причинам. Азербайджанцы расположились на следующих исторических территориях: на севере – Дербент, на юге – до Газвина и Занджа, на западе – Иреван, Гекча, Тифлис, до берегов озера Урмия. С прототюркского времени говорят на тюркском языке. Азербайджанский народ образовался от тюркских этносов и объединений соседних этносов, говорящих на других языках, на протяжении истории были в культурных отношениях с разными соседними этносами, персами по происхождению на Кавказе. Всех их объединяла одна черта – религиозная идеология. Местные народы сохранили веру и убеждение в огнепоклонство и язычество, подчинялись власти того или иного государства. В период Ахеменидов усилилось влияние Ирана на Азербайджан, а также в это же время увеличился наплыв тюркских этносов с Северного Кавказа и Средней Азии. Несмотря на различие диалектов, в средние века началось формирование как единого народа местных и приезжих тюркских этносов.

В старых источниках территория южного Азербайджана Атропатена, северной части – Албании, в арабских источниках до Дербента называлась **Азербайджан**.

Происхождение азербайджанского народа долгое время и специально объяснялось ошибочно: якобы азербайджанцы – это персы, в Азербайджане до XI-XII вв. жили тюркские этносы. Однако все исторические источники утверждают, что на этих территориях расположились тюркские племена, и в период Сельджуков и Сефевидов усилилось их военно-политическое положение. Ответ на высказывание о том, что азербайджанцы произошли от мидий, албанцев таков, что *албанские, мидийские, каспийские, утийские, гаргарские, сакасенские, матианские, сакские, массагетские* и другие племена были далекими предками современных азербайджанцев.

**Nadir Mammadli**

**Ethnogenesis of Azerbaijanis and their formation as a people**

**Summary**

The Azerbaijani people, like all nations of the world, have been formed in a certain historical territory and for various reasons. Azerbaijanis are located in the following historical territories: in the north - Derbent, in the south - to Qazvin and Zanj, in the west - Iravan, Gokcha, Tiflis, to the shores of Lake Urmia. From the Proto-Türkic time they speak Turkish. The Azerbaijani people were formed from Turkic ethnic groups and associations of neighboring ethnic groups speaking in other languages, throughout history they have been in cultural relations with various neighboring ethnic groups, Persians by origin in the Caucasus. All of them were united by one feature - religious ideology. Local peoples retained the faith and conviction in the fire-worship and paganism, were subject to the authority of a particular state. During the Achaemenid period, Iran's influence on Azerbaijan increased, and at the same time the influx of Turkic ethnic groups from the North Caucasus and Central Asia increased. Despite the difference in dialects, in the Middle Ages, the formation of a single people of local and visiting Turkic ethnic groups began.

In the old sources, the territory of southern Azerbaijan Atropaten, the northern part - Albania, in the Arab sources to Derbent was called Azerbaijan.

For a long time the origin of the Azerbaijani people was specially explained erroneously: allegedly Azerbaijanis are Persians; Turkic ethnic groups lived in Azerbaijan until the 11th-12th centuries. However, all historical sources claim that Turkic tribes settled in these territories, and during the Seljuk and Safavid period, their military-political position increased. The answer to the statement that Azerbaijanis were descended from mussels, Albanians is such that Albanian, Median, Caspian, Utii, Gargar, Sakasen, Matian, Saki, Massaget and other tribes were distant ancestors of modern Azerbaijanis.